

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 162 (23.574)

25 sentyabr 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də İsveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristian Kamillin etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirib ki, yeni səfirin Azərbaycandakı fəaliyyəti zamanı ölkələr arasında münasibətlərin inkişafı uğurla davam edəcək. Dövlətimizin başçısı vurğulayıb ki, İsveç Avropa İttifaqı ilə regionumuz arasında daha geniş əməkdaşlıqla bağlı həmişə fəal olub. Avropa İttifaqı ilə Azərbaycan arasında indi çox yüksək səviyyəli tərəfdaşlıq mövcuddur və bu tərəfdaşlıq bir çox sahələri əhatə edir.

Prezident İlham Əliyev xatırladıb ki, Azərbaycan Avropa İttifaqına üzv olan ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlıq üzrə sənədlər imzalayıb. Bu da əməkdaşlığın səviyyəsini nümayiş etdirir. İki il öncə tərəfdaşlığın prioritetləri üzrə sənədin imzalanması isə əməkdaşlığın gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edir. Ölkə başçısı məmnunluğunu bildirib ki, həmin sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı Avropa İttifaqı tərəfindən dəstəklənib. Bu, Ermənistanla Azərbaycan arasında münaqişənin həllinə çox haqlı və ədalətli yanaşmanın olduqca mühüm əlamətidir.

Səfir Kristian Kamill İsveçin Bakıda ilk rezident səfiri olaraq ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsinə töhfə vermək üçün əlindən gələni əsirgəməyəcəyini deyib.

# Naxçıvanın bugünkü inkişafı müstəqil dövlət quruculuğuna böyük töhfədir

***Gözlərimiz qarşısında gündən-günə cavanlaşan, müasirləşən, şəhərsalma mədəniyyətinin tarixi beş min ilə çatan qədim Naxçıvan zamanın heç bir dönəmində son illərdəki kimi genişmiqyaslı uğurlar qazanmayıb. Öncə onu qeyd edək ki, infrastrukturu çağdaş dünya standartları səviyyəsində bütövlüklə yenilənib, bir vaxtlar yaşadığı çoxsaylı problemlər tamamilə aradan qaldırılıb, bu gün öz inkişafının yeni dövrünə qədəm qoyub Peyğəmbər ayağı dəyən bu müqəddəs torpaq. Özünün ən şərəfli dövrünü yaşayır, sözün əsl mənasında, gözəlliklər məskəninə çevrilib Naxçıvan. Bu gün əminliklə demək olar ki, dünyanın ən gözəl, təmiz, abad şəharidir Naxçıvan.***



Ölkəmizi bürüyən quruculuq siyasətinin doğma Naxçıvanımızda ərməğanları daha çoxdur desək, yanılmarıq. Bu işlər coğrafiyasının genişliyi ilə ilk anda diqqəti çəkir. Hər il yeni-yeni yaşayış massivləri salınır, sosial-mədəni, məişət obyektləri ucaldılır. Əhalinin asudə vaxtının səmərəli təşkilinə diqqət artır, yaşıllıq zolaqları genişləndirilir. Bütün bunlar isə şəhərimizin simasına yeni çalarlar gətirir. Nəticə olaraq Naxçıvanın köhnə, yeknəsəq görkəmi artıq yaddaşımızdan silinib. Hər birimiz təsdiq edərik ki, dünən keçdiyimiz ünvanı bu gün az qala tanımırıq. Əlbəttə, hər birimizin həyatında, yaşayışında təzahürünü tapan, məişətimizə sirayət edən bu inkişaf və tərəqqiyə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yeniləşmə siyasətinə böyük ehtiramla yanaşmağın sayəsində nail olunub. Bəli, əbədi və dönməz müstəqillik dövrünün daha möhtəşəm uğurlarına yeni töhfələr bəxş edir beş min yaşlı şəhərimiz. Bu, qədim diyarımızın paytaxtı olan ulu bir şəhərin – Naxçıvanın böyük tarix yaradan və tarixə hökm edən zəfər yoludur...

Onu da vurğulayaq ki, bu gün muxtar respublikanın hansı rayon mərkəzinə, ən ucqar dağ və sərhəd yaşayış məntəqəsinə yolumuz düşsə, paytaxt şəhərimizdə həyata keçirilən quruculuq tədbirlərinin burada da aparılması hesabına müasirləşməsi diqqətimizi çəkəcək, təəccübümüzü saxlaya bilməyəcək, min bir gözəllik qarşısında qalacağıq.

Reallıq budur ki, ölkəmizdə uğurlu iqtisadi inkişafın təmin olunmasında özünəməxsus yeri var Naxçıvanın. Burada sistemli şəkildə həyata keçirilən islahatlar ümumi iqtisadi fəallığı daha da artırıb, investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə yüksəlib. Bəli, bu qədim, əzəli bölgə tarixin əksər dövrlərində olduğu kimi, bu gün də Azərbaycanın əsas istiqlal qapısıdır. Təsadüfi deyil ki, sovet imperiya zənciri ilk dəfə məhz Naxçıvanda qırılıb. Azərbaycanın bir kərə yüksələn üçrəngli azadlıq bayrağı ikinci dəfə rəsmən burada qaldırılıb. O ağır, o çətin anlarda Naxçıvan parlamentində qəbul edilən həmin qətiyyətli qərarlar həm Naxçıvanı qoruyub, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirib...

Bir neçə ildir ki, qazandığımız belə böyük uğurların arxasında isə gərgin zəhmət, böyük təşkilatçılıq qabiliyyəti dayanır. Belə bir müdrik kəlam var ki, insanların ən yaxşısı xalqın xeyrinə çalışandır. O yerdə ki Vətənə, yurda bağlı əsl rəhbər vardır, orada həyatın məcrası da düzgün istiqamətə yönəlir. Sözlə işin vəhdəti təmin edilir, nizam-intizam şüurlu olaraq varlığımıza hakim kəsilir. Budur Naxçıvanın gözoxşayan bugünkü mənzərəsi. Bu isə onu göstərir ki, ötən illər ərzində diyarımızda əsrə bərabər işlər görülüb, Naxçıvan yenidən qurulub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanın inkişafını belə xarakterizə etmişdir: ***“Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir”.***

Bir sözlə, bu gün qədim Naxçıvan özünün intibah dövrünü yaşayır. Bu yurd yeri zəngin mədəniyyət mərkəzi, tarixi abidələr diyarıdır. Bu mənada, mədəniyyət ocaqlarının bərpası və müasir obyektlərinin tikintisi də daim diqqət mərkəzindədir. Burada hər il yeni kitabxanalar, mədəniyyət evləri, muzeylər yenidən qurularaq istifadəyə verilir. Tarixi abidələr də bərpa olunaraq gələcək nəsillər üçün qorunub saxlanılır.

Onu da vurğulayaq ki, artıq sürətli inkişafın yeni mərhələsinə qədəm qoyan muxtar respublikamızda elmi, mədəni potensial daha da genişlənir. Müasir tələblər səviyyəsində inşa olunan elm, təhsil müəssisələri bu sahənin inkişafına yeni üfüqlər açır. Son 20 ildə diyarımızda 45 min şagird yerlik 148 yeni məktəb binası, həmçinin ali, orta ixtisas və peşə məktəbləri üçün yeni binalar istifadəyə verilib, 2 universitet şəhərciyi salınıb. Muxtar respublikanın təhsil müəssisələrində internetə çıxışı olan 800-dən artıq elektron lövhə, 7200-ə yaxın kompüter quraşdırılıb, distant təhsilin tətbiqi günün reallığına çevrilib, zəngin fonda malik kitabxanalar, fənn kabinələri və laboratoriyalar istifadəyə verilib. Eyni zamanda təhsil müəssisələrinin bütün fənlər üzrə ixtisaslı müəllimlərlə təmin olunması, məktəb-muzey əlaqələrinin gücləndirilməsi, nümunəvi dərslərin tədrisi gənclərin biliklərə hərtərəfli yiyələnməsinə geniş imkanlar açıb.

Sevindirici haldır ki, təhsil quruculuğu 2019-2020-ci tədris ilində də davam etdirilib, 10 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Şərur rayonunda yerləşən məktəbdənkənar müəssisələrdə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə 30 innovativ dərnək yaradılıb. Hazırda 6 məktəb binasının, Culfa rayon məktəbdənkənar tərbiyə müəssisələri və Culfa Rayon Təhsil Şöbəsi üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması isə muxtar respublikada bu fənlərə maraq göstərən şagirdlərin sayının daha da artmasına səbəb olacaq. Təhsilin inkişafına göstərilən yüksək dövlət qayğısı ali məktəblərə qəbulun dinamikasında və qəbul imtahanlarında 500-700 intervalında bal toplayan abituriyentlərin sayının artımında da özünü göstərir. 2019-2020-ci tədris ilində də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunların 275-i imtahanlarda 500-700 arası bal toplayıb. Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüş keçirilib. Həmin görüşdə Ali Məclisin Sədri deyib: ***“Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Müdriklər də deyirdi ki, hər bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsillə bağlıdır. Bu mənada, hərtərəfli təhsil alan gənclər ölkəmizin gələcək təminatçılarıdır”.***

Bu günlərdə yaranmasının 20 illiyini özünəməxsus uğurları ilə tamamlayacaq, çalışdığım Naxçıvan Müəllimlər İnstitutunun da fəaliyyətini yeni tədris korpusunda davam etdirməsi diyarımızda yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bu təhsil ocağının formalaşdırılması, onun müstəqil ali məktəbə çevrilməsi, elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, respublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində xeyli iş görülüb.

Ölkə başçısının iştirakı ilə istifadəyə verilmiş altımərtəbəli ali təhsil ocağında, ümumilikdə, 43 auditoriya, o cümlədən 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları və bir sıra fənn kabinələri üçün tədris fondları müəllim və tələbələrin ixtiyarına verilib. Fənn kabinələri tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Binada Azərbaycan ali təhsilində ilk dəfə olaraq professor-müəllim heyəti üçün 3 fərdi məsləhət otağı və psixoloji xidmət laboratoriyası yaradılıb. Təbii ki, hərtərəfli müasir şərait biz müəllimlərin, pedaqoji kollektivin məsuliyyətini daha da artırıb, müəllimlərə əlavə stimul verib.

Bütün bunlar ümummilli lider Heydər Əliyev ideyalarına sədaqət nümunəsi olan Naxçıvanın bu gün gələcəyə daha böyük inamla addımlamasını, yeni-yeni nailiyyətlər əldə etməsini, ictimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olunmasını təmin edib. Muxtar respublikada atılan hər bir addım, qəbul edilən qərarlar ictimaiyyət tərəfindən mütərəqqi təşəbbüs kimi qiymətləndirilir, cəmiyyəti düşündürən məsələlərdə Naxçıvan təcrübəsi nümunə kimi götürülür. “Hədəfsiz gəmiyə heç bir külək kömək edə bilməz”, – deyib dahilər. Görkəmli dövlət xadiminin göstərdiyi yolla qətiyyətlə irəliləyən Naxçıvan strateji hədəfləri uğurla reallaşdırır. Bütün bunların təməlində isə ulu öndərin siyasətinə sədaqət, milli dövlətçiliyə sıx bağlılıq, yorulmaz fəaliyyət dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, Heydər Əliyev yolunun təntənəsidir”.***

*Burada bir anlığa düşünməli olursan: Görkəmli dövlət xadimi Heydər Əliyev amallarına ehtiram, vəzifə borcuna məsuliyyət, müstəqilliyinin əbədiliyinə cavabdehlik hissi, böyük vətəndaşlıq mövqeyidir ki, bugünkü inkişafa nail olunub. Sadaladıqlarımız isə görülən işlərin çox cüzi bir hissəsidir. Həyata keçirilən tədbirləri göz önünə gətirəndə bu işlərin həcmi, sözün həqiqi mənasında, hər birimizin qəlbini qürurla doldurur. Onu da düşünürsən ki, öz torpağına, xalqına qəlbən bağlı olan insanların amalı və əməlləri ən yüksək qiymətə layiqdir.*

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

Dövlət proqramı icra olunur

# İqtisadi yüksəliş turizmin inkişafında əsas amillərdəndir

***Bu gün muxtar respublika sürətli inkişaf və tərəqqi dövrünü yaşayır. Həyata keçirilən kompleks islahatlar, aparılan geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat müasir Naxçıvanın əsas inkişaf göstəricisidir. Xüsusilə sosial-iqtisadi inkişaf ilə bağlı mərhələli Dövlət proqramlarının qəbulu və icra olunması Naxçıvanda bütün sahələrdə sürətli inkişafı təmin edib. Sosial-iqtisadi inkişaf, yüksək həyat şəraiti və sabitlik isə özlüyündə müasir dövrümüzün ən gəlirli sahələrindən olan turizmin də inkişafını təmin edib. Turizm potensialının beynəlxalq aləmdə tanıdılması, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Qəbul edilən Dövlət proqramlarının uğurlu icrası muxtar respublikanı həm də turizmin inkişaf etdiyi diyara çevirib.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası da bu sahədə fəaliyyətin gücləndirilməsinə əlverişli şərait yaradıb. Ötən dövrdə proqramın icrası diqqət mərkəzində saxlanılıb, turizmin inkişafına xidmət edən bir çox sahələrdə əsaslı işlər görülüb. Artıq bu, bir reallıqdır ki, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin rolu getdikcə artır. Göstərilən dövlət dəstəyi sahibkarlıq subyektlərini daha fəal çalışmağa sövq edir. Hazırda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarının, göstərilən xidmətlərin əksər hissəsi özəl bölmənin payına düşür. Bunun nəticəsidir ki, özəl sektorun ümumi daxili məhsuldakı payı artaraq 88 faizi ötüb.





Turizmlə bağlı bu yazıda iqtisadi göstəricilərə və sahibkarlığın inkişafına o səbəbdən nəzər salmaq istəyirik ki, muxtar respublikada bu sahənin inkişafı özəl sektorun əsas istiqamətlərindən biri elan edilib. Səfər etdikləri yerlərdə turistlərin diqqətini daha çox cəlb edən sahələrdən biri də xalq sənətkarlığı sahələri və əl işləridir. Muxtar respublikada xalq sənətkarlığının müxtəlif sahələri inkişaf etdirilib, sənətkarlar üçün lazımi şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən öyrəndik ki, ötən dövrdə sənətkarlar tərəfindən muxtar respublikanın tarixi-memarlıq abidələrini, milli arqumentləri özündə əks etdirən xalçaçılıq, papaqçılıq, bədii incəsənət, misgərlik, ağac, daşduz və gips üzərində oymalar, dekorativ-tətbiqi sənət və dulusçuluq sahələri üzrə 13 min manat dəyərində 722 ədəd əl işi (suvenirlər və hədiyyəlik xatirə əşyaları) və sənət əsəri hazırlanıb. Bu əl işlərinin turistlərin ən çox maraq göstərdiyi obyektlərdə, o cümlədən "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi-satış mağazalarında və digər hədiyyəlik mağazalarda nümayişi və satışı həyata keçirilib.

Azərbaycan xalçaları tarixin bütün dövrlərində xarici ölkələrdə maraqla qarşılanıb. Günümüzdə də ölkəmizə səfər edən turistlər sənətkarlıq nümunələri sırasında xalçalara xüsusi maraq göstərirlər. Buna görə də ən qədim sənət növlərindən biri kimi xalçaçılığın inkişafı daim diqqət mərkəzində saxlanılır. Naxçıvanda zəngin ənənələrə malik olan xalçaçılıq günümüzdə də yaşadılır, böyük xalçaçılıq nümunələri ilə yanaşı, turistlər üçün kiçikhəcmli hədiyyəlik nümunələr də toxunur. İqtisadiyyat Nazirliyindən bildirdilər ki, Xalq Yaradıcılığı Emalatxanasında milli mentalitetimizi, adət-ənənələrimizi əks etdirən 57 xalça toxunub. Muxtar respublikanın qədim tarixini tanıtmaq üçün xalçalar üzərində Haçadağ, milli motivlər, kənarlarında isə milli arqumentlər, qədim çeşnilər öz əksini tapıb.

2018-ci il Naxçıvanda turizmin ən çox inkişafda olduğu il kimi tarixə düşüb. Çünki İslam Mədəniyyətinin Paytaxtı elan olunan Naxçıvana daha çox turist səfər edib, diyarımızla ətraflı maraqlanıblar. Ötən dövr ərzində muxtar respublikada fəaliyyət göstərən sənətkarlar tərəfindən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqotipi əks olunmuş 748 əl işi hazırlanıb. Bu baxımdan yanaşdıqda Şərur rayonunun Cəlilkəndində Buzxana kompleksində xalçatoxuma, misgərlik, Yengicə və Şahtaxtı kəndlərindəki hamam komplekslərində sənətkarlıq və xidmət sahəsinin yaradılmasının muxtar respublikada xalq yaradıcılığının inkişafı ilə yanaşı, turizm imkanlarının artmasında da əhəmiyyətli rola malik olduğunu qeyd edə bilərik.

Turizm potensialı yüksək olsa da, onun təbliği mexanizmini işə salmadıqda bu potensialdan səmərəli istifadə etmək barədə söhbət gedə bilməz. Necə deyərlər, təbliğatsız turizm kompassız gəmi kimidir. Buna görə də Turizm Departamenti, Turizm İnformasiya Mərkəzi və digər aid qurumlar Naxçıvanın turizm imkanlarını istər internet resursları vasitəsilə, istərsə də diyarımıza səfər edən qonaqlara daha geniş şəkildə təbliğ etməklə Naxçıvana daha böyük maraq yaratmağa çalışır. Son illər Koreya, İsveç, Hindistan, Rusiya Federasiyası, Norveç Krallığı, Tacikistan, İndoneziya, Moldova kimi bir çox ölkələrin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Naxçıvan Biznes Mərkəzində keçirilmiş görüşlərdə muxtar respublikanın turizm imkanları, səhiyyə turizm ocaqları barədə məlumatlar verilib, perspektivdə sahibkarların bu sahəyə cəlb edilməsinin əhəmiyyəti vurğulanıb. 2018-2019-cu illərdə Almaniya, İran, Belarus, Səudiyyə Ərəbistanı, Xorvatiya, Polşa, Birləşmiş Ərəb Əmirliyi, Türkiyə, Rusiya, Ukrayna, Pakistan, İtaliya, Çin, Latviya, Qazaxıstan, Çexiya, Fransa, Avstriya, Slovakiya kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 48 beynəlxalq tədbirdə muxtar respublikadan 256 sahibkarlıq subyektinin 263 nəfər nümayəndəsinin iştirakı təmin edilib və bütün hallarda muxtar respublikanın turizm potensialı haqqında xarici iş adamlarına və həmin ölkələrin rəsmilərinə məlumat verilib.

Naxçıvanın təbliği, sadəcə, muxtar respublika hüdudları daxilində həyata keçirilmir. Sahibkarlarımızın ərsəyə gətirdikləri məhsulların xarici ölkələrdə də nümayişi önəmli məsələlərdən biri kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən iş adamları keçirilən bir çox sərgilərdə fəal iştirak edib, diyarımızın turizm potensialını, Naxçıvanın təşviqi ilə bağlı tanıtım materiallarını nümayiş etdirirlər. Təkcə bir faktı qeyd edək ki, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin Urmiya şəhərində Naxçıvan Muxtar Respublikasında istehsal olunan ərzaq məhsulları və əl işlərinin sərgi-satışı təşkil olunub. Tədbirdə muxtar respublikanın 26 sahibkarlıq subyektinin, həmçinin 62 adda əl işlərinin sərgi-satışı həyata keçirilib.

Naxçıvanda inkişafına diqqət yetirilən turizm sahələrindən biri də kənd turizmidir. Muxtar respublikanın kəndlərinin çox hissəsi dağlıq ərazilərdə, çay vadilərində yerləşir. Geniş ərazi, münbit torpaq, saf su, təmiz hava, bol günəş – bunlar zəngin təbiət sərvətləridir və ekoturizmin yarımnövü olan kənd turizminin inkişafına da öz müsbət təsirini göstərir. Muxtar respublikada gedən sosial-iqtisadi inkişafın nəticəsidir ki, artıq ən ucqar dağ kəndlərində belə, kənd turizmi həvəskarlarını qəbul edib onların istirahətini təmin etmək üçün hər cür imkan var. Belə ünvanlarda yüksəksürətli internet şəbəkəsindən və poçt-rabitə xidmətlərindən də istifadə etmək mümkündür.

Kənd turizminin inkişaf etdirilməsində, kənd yerlərində kiçik sahibkarlığın inkişafında, bölgələrin mövcud potensialından səmərəli istifadə olunmasında ailə təsərrüfatlarının mühüm rolu vardır. Belə təsərrüfatların fəaliyyətinin stimullaşdırılması, sıralarının genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi davam etdirilir. İqtisadiyyat Nazirliyindən aldığımız məlumata əsasən ötən dövr ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 46 ailə təsərrüfatına 710 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilib. Bu da nəticə olaraq təsərrüfatların fəaliyyətinin genişləndirilməsinə stimul verib, ailə təsərrüfatlarından bir hissəsinin isə kiçik sahibkarlıq subyektinə çevrilməsinə şərait yaradıb. Bununla yanaşı, "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsi, belə təsərrüfatlar tərəfindən istehsal olunan məhsulların sərgi-satışının təşkili həm ailə təsərrüfatlarının fəaliyyətlərinin stimullaşdırılmasında, həm də muxtar respublikanın turizm imkanlarının təbliğində mühüm rol oynayıb. Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda ailə təsərrüfatlarında istehsal olunan 112 çeşiddə məhsulun nümayiş etdirilməsi diyarımıza təşrif buyuran xarici qonaqların muxtar respublikanın kənd yerlərinin iqtisadi potensialı haqqında dolğun məlumat əldə etmələrinə şərait yaradıb.

Turizm, öz növbəsində, yeni xidmət və istehsal sahələrinin inkişafını da şərtləndirir. Ötən dövr ərzində istifadəyə verilən Uzunoba istirahət kompleksi, Naxçıvan atçılıq klubu, iri ticarət mərkəzləri, kafelər, restoranlar, Naxçıvan şəhərində fəaliyyətə başlayan xidmət sahələri dünyanın məşhur firmalarının istehsal etdikləri "İdeal" ətriyyat və kosmetika mağazası kimi məkanlar turistlər üçün nümunəvi xidmətin və mənalı istirahətin ünvanlarıdır.

Naxçıvan Muxtar Respublikasının ölkə və beynəlxalq miqyaslı turizm tədbirlərində iştirakı təbliğat baxımından mühüm əhəmiyyət daşıyır. Bu tədbirlər, eyni zamanda Naxçıvanın beynəlxalq turizm bazarında mövqeyinin möhkəmləndirilməsi işində də xüsusi rol oynayır. Görülən silsilə tədbirlər qədim diyarımızın turizm potensialı geniş şəkildə təbliğinə xidmət edir.

***Göründüyü kimi, Naxçıvan öz tarixi, müasir infrastrukturu, mədəniyyəti, incəsənəti, unikal təbiət abidələri, mətbəxi, folklor kollektivləri, bənzərsiz sənət nümunələri yaradan sənətkarları, qonaqpərvərliyi, sabitliyi ilə dünyanın istənilən ölkəsindən gələn turisti heyrətləndirməyə qadirdir. Turizmin inkişafı həm də Naxçıvan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə dəstəkdir. Buna görə də hər birimiz müasir dövrün gəlirli sahəsi hesab edilən turizmin inkişafında maraqlı olmalıyıq. Sənətkar əsərində, jurnalist yazısında, fotoqraf fotolarında, rəssam rəsmlərində, ən əsası isə hər birimiz sosial şəbəkə hesablarımızda Naxçıvanı, diyarımıza məxsus gözəllikləri təbliğ edəriksə, bu sahədə daha geniş inkişafı təmin etmiş olarıq. Turizm ümumxalq işidir. Hər birimiz Naxçıvanın təbliğinə çalışmaqla, bu məqsədlə sosial şəbəkələrdəki imkanlarımızdan istifadə etməklə turizmin muxtar respublika iqtisadiyyatındakı rolunu gücləndirər, Azərbaycanın bu qədim və gözəl guşəsinin daha geniş miqyasda tanınmasına töhfəmizi vermiş olarıq.***

**Gülcamal TAHİROVA**

# Naxçıvan Muxtar Respublikasının Turizm loqosunun təqdimat mərasimi keçirilib

*Dünən "Saat Meydanı" turistik istirahət mərkəzində 27 sentyabr – Ümumdünya Turizm Günü və ölkəmizdə qeyd olunan Turizm İşçiləri Günü peşə bayramı münasibətilə Naxçıvan Muxtar Respublikasının Turizm loqosunun təqdimat mərasimi keçirilib.*

Əvvəlcə tədbirin aparıcısı muxtar respublikada turizm sahəsinə göstərilən dövlət qayğısından danışıb, son illər bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər barədə ətraflı məlumat verib.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov çıxış edərək bildirib ki, yüksək turizm potensialına malik olan muxtar respublikada Dövlət proqramlarının, infrastruktur layihələrinin uğurlu tətbiqi nəticəsində bu sahədə davamlı inkişafa nail olunub. "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası da bu sahədə fəaliyyətin gücləndirilməsinə əlverişli şərait yaradıb. Son illər muxtar respublikada turizmin inkişafı ilə yanaşı, mövcud turizm potensialının təbliği və tanıdılması istiqamətində də mühüm işlər görülüb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2020-2023-cü illər üzrə birgə "Tədbirlər planı" təsdiq edilib. Planın icrası istiqamətində həyata keçirilən tədbirlərdən biri də təqdimatına toplaşdığımız "take another look" brendi və loqosuna uyğun olaraq Naxçıvan Muxtar Respublikasının özünəməxsus yerli destinasiya loqosunun hazırlanmasıdır.




Əminliklə demək olar ki, Naxçıvan Muxtar Respublikasının Turizm loqosu qısa vaxt ərzində Naxçıvanın turizm brendinə çevriləcək.

Əkbər Novruzov çıxışının sonunda turizm sektorunun nümayəndələrinin qarşıdan gələn peşə bayramını təbrik edib, diyarımızda turizmin inkişafına göstərilən diqqət və qayğıya görə bütün turizm işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

"Nəqşicahan Holdinq Şirkətlər Qrupu" MMC-nin direktor müavini Rifat Mahmudov çıxış edərək Ali Məclis Sədrinin birbaşa diqqət və qayğısı sayəsində muxtar respublikada turizm sektorunun inkişafı üçün yaradılan şəraitdən, mövcud pandemiya dövründə daxili turizm sahəsində həyata keçirilən tədbirlərdən danışıb, turizm işçilərini peşə bayramı münasibətilə təbrik edib.

Sonda Naxçıvan Muxtar Respublikasının Turizm loqosunun təqdimat videoçarxına baxış olub.

**Güntac ŞAHMƏMMƏDLİ**

## O, Naxçıvandır: pandemiya muxtar respublika ilə bacarmayıb



Ölkədə ümumi daxili məhsul (ÜDM) istehsalı 3 faiz azalıb. Dövlət Statistika Komitəsinin yanvar-avqust aylarının nəticələrinə dair məlumatında belə deyilir. İlin birinci yarısının yekununa görə, 2,7 faiz idi. Çünki il başlanandan bəri pandemiya şəraiti ilə əlaqədar ikitərəfli təzyiq altında idik.

Lakin söhbət tənəzzüldən getsə də, bu, o qədər də böyük rəqəm deyil. İlin 3-cü rübünün bitməsinə isə az qalır. Altı aydan çoxdur, pandemiya şəraitində yaşayırıq. Cari ilin nəticələrini ötən illə müqayisə etmək düzgün deyil. Çünki söhbət iqtisadi sistemin sırf daxili səbəblər üzündən qaynaqlanan tənəzzülündən getmir. Hazırkı sosial-iqtisadi durumumuzu xarici ölkələrlə yanaşı qoysaq, bizdə vəziyyət qənaətbəxşdir. O səbəbdən ki əksər ölkələrdə tənəzzül ikirəqəmli səviyyədədir və 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardım üçün müraciət edib.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasında isə tənəzzül yoxdur, əksinə, 0,7 faiz daha çox ÜDM istehsal edilib. Bu, çox maraqlı faktdır.

Naxçıvan Azərbaycanın ən inkişaf etmiş diyarıdır. Naxçıvan Muxtar Respublikasında son illər ərzində əldə olunan inkişaf, sosial-iqtisadi və xüsusən də sənaye sahəsində atılan böyük və uğurlu addımlar digər bölgələr üçün örnək sayılır. Bu ilin yanvar-avqust ayları ərzində muxtar respublikada 1 milyard 840 milyon 976 min manat həcmində ÜDM istehsal edilib ki, bu rəqəm 2019-cu ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz səviyyəsində çoxdur. Bu ilin ilk 8 ayı ərzində muxtar respublikada hər bir nəfərə düşən ÜDM istehsalı 4 min manat təşkil edib ki, bu da ötən ilin 8 ayının göstəricilərinə görə müqayisədə 1,4 faiz çox deməkdir.

Cari ilin ilk 8 ayı ərzində sözügedən bölgədə sənaye məhsulları istehsalı isə 758 milyon 415,7 min manata bərabər olub ki, bu da ötən ilin yanvar-avqust ayları ilə müqayisədə 1 faiz çoxdur.

Naxçıvanda özəl sektorun inkişafına, sahibkarlıq fəaliyyətinin genişlənməsinə ciddi diqqət yetirildiyini, xüsusən sənaye məhsulları istehsalı sahəsində sahibkarlıq təşəbbüsləri və fəaliyyətinin birinci olaraq dəyərləndirildiyini əvvəllər də yazmışam. Elə bu səbəbdən də, bütövlükdə, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı ən sürətli şəkildə həmişə burada təşəkkül tapıb və tapmaqda da davam edir.



Bunun nəticəsidir ki, ötən 8 ay ərzində dünya və ölkə iqtisadiyyatı pandemiya şəraitində nəfəs aldığı halda Naxçıvanda investisiyaların da həcmi artıb. Belə ki, ilin yanvar-avqust aylarında muxtar respublikada əsas kapitala 661 milyon 448 min manat vəsait yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

Sözügedən rəqəm, bütövlükdə, ölkə üzrə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faizə bərabər olub. Lakin bu zaman neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 19 faiz artdığı halda, qeyri-neft sektorunda 10,5 faiz azalıb. Bunlar olduqca diqqətçəkən faktorlardır.

Regionların inkişafı ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir. Məsələ isə bundadır ki, kommunal xidmətlərin və sosial infrastruktur təminatının yüksəlməsi, həmçinin sahibkarlıq mühitinin yaxşılaşması, investisiya qoyuluşunun artması, yeni müəssisə və iş yerlərinin açılması, nəticədə, əhalinin məşğulluğunun genişlənməsi, yoxsulluq səviyyəsinin azalması kimi amillər ən sürətli şəkildə bundan əvvəl də Naxçıvanda öz əksini tapırdı və tapmaqda da davam edir.

Sözügedən bölgədə pandemiya şəraitində də ÜDM istehsalı və investisiya qoyuluşunun artması isə daha böyük əhəmiyyət daşıyır. Məsələn, bir fakta da diqqəti cəlb edim ki, kənd təsərrüfatı məhsulu istehsalı müqayisəli qiymətlər üzrə 3,6 faiz artıb. Ölkə üzrə isə 1,9 faiz... Xatırladım ki, kənd təsərrüfatı qeyri-neft sektorunun ən ümdə qoludur. Düzdür, dünya və ölkə iqtisadiyyatında eniş Naxçıvana da tam olaraq təsirsiz ötüşməyib. Belə ki, nəqliyyatda yük daşınması, pərakəndə əmtəə dövriyyəsi uyğun olaraq 1,4 və 0,9 faiz səviyyəsində enib. Ancaq əsas odur, koronavirus Naxçıvan iqtisadiyyatına hələ ki ciddi şəkildə təsir göstərə bilməyib. Və bu, Azərbaycan iqtisadiyyatının xarici təsir və böhrana qarşı bölgələr üzrə bir növ davamlılıq göstəricisi sayılır.

Sonda bir məqama da toxunum. Azərbaycan hazırda, sanki pandemiya ilə postpandemiya arasında keçid dövrünü yaşayır. Dövlətimizin milyardlarla manat itkilərə yol verməsinə baxmayaraq, makroiqtisadi vəziyyət möhkəm xarakter daşıyır. Bunda Naxçıvan kimi bölgələrdə iqtisadi fəallığın passivliyə uğramaması çox mühüm təsirə malikdir.

Sözügedən amil həm də ondan irəli gəlir ki, ölkədə indiyədək həyata keçirilən islahatlar üzrə uğurların davamlılığını qoruyub saxlamaq, əhalinin artması ilə bağlı yaranan tələbi qarşılamaq üçün iqtisadiyyatın çoxşaxəli inkişafını təmin etmək, həmçinin infrastrukturu və sosial xidmətləri daha da yaxşılaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzası ilə 2019-cu il 29 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" kimi dövlət sənədləri də mühüm əhəmiyyət kəsb edir və icrası böyük töhfələr verir.

Odur ki, hesab edirəm, ölkəmizin hər bir bölgəsi üzrə də əgər qeyd olunan tərzdə proqram sənədlər mövcud olarsa, yaxud da başqa sözlə desəm, işlənib hazırlanaraq həyata keçirilərsə, gələcək qlobal iqtisadi kataklizmlərdən isə ümumiyyətlə, sığortalana bilərik.

**Pərviz HEYDƏROV**
***Azvision.az***

## Əmək qanunvericiliyi, kadr və kargüzarlıq işinin təşkilinə dair ikigünlük təlim

***Əmək qanunvericiliyi, kadr və kargüzarlıq işinin təşkilinə dair Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində təşkil olunan ikigünlük təlimdə dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların bu sahə üzrə çalışan 12 əməkdaşı iştirak edib.***



Təlimin təşkilində məqsəd kadr və kargüzarlıq işinin qanunvericiliyə uyğun təşkili, insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi, iş təcrübəsinin yüksəldilməsi və bu sahədə yeniliklərin tətbiqidir.

İlk gün mərkəzin direktoru Mehriban İmanova çıxış edərək təlimin mahiyyəti barədə danışıb. Maliyyə Tədris Mərkəzinin baş mütəxəssisi Zəhra İsmayılova təlimin birinci modulu üzrə "Əmək qanunvericiliyi" mövzusunda çıxış edərək Azərbaycan Respublikasının əmək qanunvericiliyi, işçinin və işəgötürənin əsas hüquq və vəzifələri, əmək funksiyası, iş vaxtı və onun tənzimlənməsi, əmək müqaviləsi, onun növləri, hazırlanması, sənədləşdirilməsi, əmək müqaviləsi üzrə elektron informasiya sistemindən istifadə, müqaviləyə xitam verilməsi qaydaları barədə slaydlar vasitəsilə geniş məlumat verib. "Kadr işinin təşkili" adlı ikinci modul üzrə təlimçi-ekspert qismində çıxış edən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Arzuman İmanov "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələri, məzuniyyət hüququnun tənzimlənməsi, məzuniyyət və onun növləri, müddətləri və verilməsi qaydaları, kadrlara dair tələblərin müəyyənləşdirilməsi haqqında geniş məlumat verib.

Təlim növbəti gün təşkilatlarda sənədlərin hazırlanması, hərəkəti, icrası, uçotu ilə əlaqədar olaraq sənədləşmə və kargüzarlıq işinin düzgün şəkildə aparılması və təkmilləşdirilməsi mövzusu ilə işini davam etdirəcək.

Sonda iştirakçıların peşəkarlıq səviyyələrinin qiymətləndirilməsi üçün test imtahanı keçiriləcək, müvəffəqiyyət əldə edən iştirakçılara sertifikatlar təqdim ediləcək.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Təlim-metodik toplantı



*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən mühəndis ixtisaslı manqa komandirləri ilə təlim-metodik toplantı keçirilib.*

Toplantıda əsas diqqət ixtisas və taktiki-xüsusi hazırlıq üzrə məşğələlərə yönəldilib. Məşğələlər zamanı səhra şəraitində avtomobil texnikalarının maskalanma üsul və vasitələri, silahlanmada mövcud olan müasir mina əleyhinə qoruyucu istehkam kostyumları və minaaxtaranlar, ön xəttin qarşısında qurulacaq partlamayan piyada və tank əleyhinə mühəndis maneələrinin nümunələri, döyüş və avtomobil texnikalarının səngərləri və daldalanacaqları, "Pomnis-2" mina sahələrindən keçidaçma qurğusunun taktiki-texniki xüsusiyyətləri və iş prinsipi, mühəndis-müşahidə postlarından düşmənin, ərazinin və obyektlərin mühəndis kəşfiyyatının aparılması qaydaları nümayiş etdirilib. Yekunda toplantıya cəlb edilmiş heyətdən fiziki və ixtisas hazırlığından məqbullar götürülüb.

**Nəriman NƏCƏFOV**

## AMEA Naxçıvan Bölməsinin əməkdaşları hərbi hissədə olublar

***AMEA Naxçıvan Bölməsinin əməkdaşları tez-tez muxtar respublika ərazisində yerləşən hərbi hissələrə gedib əsgər və zabitlərlə görüşlər keçirirlər. Bölmənin bir qrup əməkdaşı növbəti dəfə Naxçıvan şəhərində yerləşən N hərbi hissədə olub.***



Əməkdaşlar əsgərlər qarşısında çıxış edərək ordu və cəmiyyət əlaqələrinin zəruriliyindən danışıblar. Qeyd edilib ki, xalq-ordu birliyi həmişə olub və bu gün də davam etdirilir. Orduda xidmət edən hər bir əsgər və zabit bilməlidir ki, xalqımız həmişə onların yanındadır. Vətənin, millətin keşiyində dayanan mərd, cəsur əsgərlərimizin arxasında bütün Azərbaycan xalqı dayanır.

Görüşdə ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərdən də söz açılaraq bildirilib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında müasir texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu öz gücünü Aprel döyüşləri, Günnüt əməliyyatı və Tovuz istiqamətində düşmən təxribatının qarşısının layiqincə alınmasında sübut edib.

Vurğulanıb ki, igid əsgərlərimiz Vətəni qorumaqla, hər bir kəs isə ölkəmizin uğurlu gələcəyi üçün işi ilə öz töhfəsini verməyə çalışır.

Ziyarət çərçivəsində bölmənin Nəbatat bağında salınmış meyvə bağından toplanan 800 kiloqram alma orduya təhvil verilib.

Qeyd edək ki, bölmə əməkdaşları bir neçə ay bundan əvvəl də hərbi hissəyə 700 kiloqram alma təqdim ediblər. Bu kimi ziyarətlərin gələcəkdə də təşkil edilməsi planlaşdırılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Onlayn seminar-diskussiya



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə əlaqədar müvafiq sərəncamlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə Naxçıvan Müəllimlər İnstitutunun Təsviri incəsənət müəllimliyi ixtisasında təhsil alan tələbələri üçün "Hami təşkilatların vacibliyi və müsbət təsiri" mövzusunda onlayn seminar-diskussiya keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru Azad Novruzov açaraq hami təşkilatla birgə keçirilən seminarların əhəmiyyətini diqqətə çatdırıb. Təsviri incəsənət müəllimliyi ixtisasının tələbələri üçün keçirilən tədbirlərin önəmini vurğulayan rektor bildirib ki, hamilik çərçivəsində həyata keçirilən işlər müvafiq ixtisaslarda təhsil alan tələbələr üçün geniş imkanlar açmaqdadır.

Seminarda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, hami təşkilat olaraq Naxçıvan Müəllimlər İnstitutu ilə birgə əməkdaşlıq çərçivəsində Təsviri incəsənət müəllimliyi ixtisasında təhsil alan tələbələr bu günədək aktiv fəaliyyət göstəriblər. İstedadlı tələbələrin Bəhruz Kəngərli adına Sərgi Salonunda fərdi və qarışıq sərgiləri təşkil olunub, ustad dərsləri keçilib, tələbələr festival və müsabiqələrə dəvət olunaraq yüksək nəticə göstəriblər.

Seminarda, həmçinin müəllim və tələbələrin çıxışları dinlənilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Tədbir keçirilib

***Sentyabrın 24-də Culfa rayonunun Əbrəqunus Kənd Mərkəzində "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılmasında qanunvericiliyin tələbləri" mövzusunda seminar keçirilib.***

Tədbiri Culfa Rayon İcra Hakimiyyəti aparatının şöbə müdiri Mehdi Paşayev açıb.

Tədbirdə Qeydiyyat və notariat şöbəsinin Notariat bölməsinin rəisi vəzifəsini müvəqqəti icra edən ədliyyə müşaviri Zülfi İsmayılov, Qanunvericilik bölməsinin rəisi ədliyyə müşaviri Ayaz Məhərrəmov və Culfa Rayon Qeydiyyat Şöbəsinin rəisi Ramazan Nəcəfov çıxış ediblər. Bildirilib ki, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsində aparılan əməliyyatlar zamanı qanunvericiliyin tələblərinə riayət edilməsi, əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi, nöqsanlara yol verilməməsi, aparılan əməliyyatlar zamanı kargüzarlıq qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin gözlənilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir.

Qeyd olunub ki, nikahın, doğumun və ölümün dövlət qeydiyyatının aparılması üzrə səlahiyyətlərin Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri ilə yanaşı, müvafiq icra hakimiyyətlərinin nümayəndəlikləri tərəfindən də həyata keçirilir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Yurdumuzun nemətləri*

# Dərdlərin dərmanı həmərsin

***Təmiz ab-havası, füsunkar təbiəti, buz bulaqları, "bəstəkar" şəlalələri, qollu-budaqlı "pir" ağacları ilə insanda xoş duyğular oyadan, qayalarından xınalı kəkliklərin səsi gələn Havuş kəndinə doğru irəlilədikcə Şərur-Dərələyəz silsiləsinin özünəməxsus gözəllikləri, uca dağları, xoş təbiəti, təravətli havası insanı, sanki sehrli bir aləmə aparır. Yolboyu seyr etdiyimiz adları əfsanəyə çevrilən Sırfadaşı, Əncirik, Hadıqayıb, Dana qalası, kəndi üzük qaşı kimi dövrəyə alan dağlar qoynunda bitən min bir dərdin dərmanı olan bitkilər ilə də məşhurdur.***



Uzun illər nənələrimiz kəklikotu, yarpız, nanəcövhər, həmərsin, zirincdən bir çox xəstəliklərin müalicəsində istifadə ediblər. Elə indi də bu nemətlər əl üstündə tutulur. Yolyoldaşım, ailə təsərrüfatçısı Şərur rayon Aşağı Aralıq kənd sakini Fərqanə xanımın ilin bu vədəsində Havuş kəndinə gəlməyinin əsas səbəbi həmərsin və zirinc toplamaqdır. Səhərin sərinindən ta günortaya kimi həmərsin toplaya-toplaya dağ havasını ciyərlərimizə çəkir, kəndin gözəlliyini seyr etməkdən zövq alırıq. Elə ki yoruluduq, üz tuturuq bizə tanış olan ünvanlardan birinə – Sara xalanın evinə. Gözəl mənzərəli eyvanda dağ



otlarından dəmlənmiş çayı kətanköynək Havuş cəvizi qatılmış bal ilə içəiçə şirin söhbətə başlayırıq. Xanımlar özlərinə məxsus təcrübəni bölüşməkdə olsun, biz isə bunları qələmə almaqda.

Sara xala:

– Yaz və payız fəsillərində buraya gələnlər qucaq-qucaq şəfalı bitkilər toplayıb geri qayıdırlar. İlin bu vədəsində isə zirincin, həmərsinin vaxtıdır. Payızın ortalarında yetişən həmərsinin çiçəyindən mürəbbə bişiririk. Bu mürəbbə min bir dərdin dərmanıdır. Yazın sonlarına doğru çiçəkləri toplayır, yüz qram çiçəyə bir kloqram şəkər tozu, bir litr su əlavə edib bir dəfəyə bişiririk. Həmərsinin özünü də, çiçəklərini də yığmaq çətin olduğu üçün onu toplayarkən tikanlı kollarının arasında ehtiyatlı olmaq lazımdır ki, əllərinizi dalamasın. Meyvələr tam yetişməlidir ki, onun doşabı, qurusu yaxşı olsun. Hazırlanan məhlula bəzi rayonlarımızda mət, turşu, bəzilərində isə doşab deyirlər. Bu meyvənin doşabı ilə bərabər kompotunu da hazırlayıram. Bunun üçün bir kiloqramlıq balonun içərisinə bir ovuc həmərsin, zövqə görə şəkər tozu əlavə edirik. Yaxşıca qaynadıb bağlayırıq. Qışda, əsasən də, yazqabağı bu kompot vitamin mənbəyidir. Onu da deyim ki, həmərsinin dəmləməsi və məti təzyiqi aşağı saldığı üçün ondan az-az içmək lazımdır. Amma kompotun tərkibində şirə olduğu üçün ondan daha çox istifadə edə bilərsiniz.

Fərqanə xanım həmərsindən həm turşu, həm də tomat hazırladığını deyir:

– Bunun üçün tam yetişmiş meyvələr yığılır, təmizlənib yuyulur. Ocaq qalanır, məclis qazanının yarısına həmərsin, üzərini örtənə kimi isə su tökülür. Ocaqda tam bişənə kimi qaynadılır. Hazır olduqdan sonra öncə aşsüzəndən keçirilir. Bu zaman meyvənin tikanları əlimizi dalamasın deyə, mütləq əlcək geyinirik. Aşsüzəndən keçirilmiş məhsul bir neçə dəfə ələkdən keçirilir. Ələyin içərisinə tənzif salırıq ki, daha təmiz süzülsün. Bu proses bir neçə dəfə təkrar olunur. Sonra hazır olan məhsulu böyük bir qazana töküb ocağa qoyuruq. İçərisinə zövqə görə şəkər tozu da əlavə etmək olar. Turşumuz qaynayan zaman üzərinə çıxan köpük tez-tez yığılır. Hazır olana yaxın qazanın ölçüsünə uyğun olaraq bir taxta qaşıq, ya da ki, oxlovun yarısına kimi təzə pambıq dolayır, üzərini tənziflə bükürük, onu qaynayan məhlulun içərisinə salıb fırladırıq. Bu zaman onun tərkibindəki bütün tikanlar həmin pambığa yapışır. Qaynadılıb hazır olan məhsul soyumağa qoyulur. Ardından şüşə balonlara yığılır. Fərqanə xanım onu da qeyd edir ki, tomatın hazırlanma qaydası da mətinki ilə eynidir. Bir fərq var. Mət duru olur və içərisinə bəzən şəkər tozu da əlavə edilir. Tomat isə daha qatı və azca duzlu olur. Nə hazırlayacağımızdan asılı olmayaraq, həmərsin meyvəsi tam yetişməlidir. Çünki onun vitaminlərlə zənginləşməsi üçün meyvənin yetişməsi vacibdir. Mən hər il həmərsindən müxtəlif məhsullar hazırlayır, yarmarka və festivallara çıxarıram. Yaxşı alıcısı da var bu nemətlərin.

Sara xala onu da əlavə edir ki, bu bitkinin həm yarpaqları, həm kökü, həm çiçəkləri, həm də meyvəsi müalicəvi təsirə malikdir. Xalq təbabətində ondan yara sağaltmaqda istifadə olunur. Belə ki, dəmləməsi ilə yaraları yuduqda tez sağalır. Həmərsin dəmləməsini bal ilə qarışdırıb içdikdə, orqanizmin immun sistemi möhkəmlənir. Mədə-bağırsaq xəstəlikləri zamanı faydası böyükdür. Meyvəsindən hazırlanan çay və kompot maddələr mübadiləsini yaxşılaşdırır. Yüngül sakitləşdirici təsirə malikdir. Böyrək xəstəlikləri zamanı onun fəaliyyətini yaxşılaşdırır, mayeqovucu xüsusiyyətə malikdir. Bu gün çoxumuz oynaqlarımızdakı duzlaşmadan əziyyət çəkirik. Həmərsin dəmləməsi bunun da qarşısını alır.

Nənəm həmişə deyərdi ki, bu dağların qoynunda bitən hər bitki can dərmanıdır, lakin hansını necə və nə vaxt yığmağın, həmçinin istifadə etməyin qaydasını bilməsəniz, xeyirdən çox zərərini görərsiniz. Elə bitkilər var ki, ondan hazırlanan məhsulları və ya çayı az içmək, ələləri də var ki, mütəmadi istifadə etmək lazımdır. Digər bitkilər kimi, həmərsindən hazırlanan məhsullardan da qədərində istifadə etmək məsləhətdir. Xüsusilə mədə xorası, qan xəstəlikləri olan insanlar bu bitkidən məhdudiyyətlə istifadə etməlidirlər.

Sara xalanın şirin söhbətindən, qonaqpərvərliyindən doymasaq da, artıq vidalaşmaq vaxtı çatdığı üçün sağollaşıb kənddən ayrılırıq. Günəşin dağların arxasına çəkilməsi ilə Tanrının yurdumuza bəxş etdiyi gözəlliyə daha bir gözəllik qatılır, bu mənzərəni seyr edə-edə düşünürəm:



*Dünyada geni dəyişdirilmiş məhsulların geniş yayıldığı bir dövrdə Naxçıvan torpağının hər bucağında vitaminlərlə zəngin bitkilər yetişir. Ulu Yaradanın bu yurda bəxşiş olan, mineral və vitaminlərlə zəngin məhsullarla nə qədər bol qidalansaq, xəstəliklərdən də bir o qədər uzaq olarıq. Yurdumuzun bu qiymətli nemətlərindən istifadə etməklə, onların qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması qayğısına da qalmalı, elin sərvətini tükənməyə qoymamalıyıq.*

✍ **Ramiyyə ƏKBƏROVA**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Hansı tikinti obyektlərinin tikintisinə icazə tələb olunmur?*

***Cavab:*** Şəhərsalma və tikinti qanunvericiliyinə əsasən əgər hər hansı bir şəxsin mülkiyyətdə, icarədə və ya istifadədə olan torpaq sahəsində hündürlüyü ən çoxu 5 metr, sahəsi 100 kvadratmetr olan birmərtəbəli yardımçı tikililərin, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyəti ilə bağlı obyektlərin, xüsusi mülkiyyətdə olan torpaq sahələrində həcmi ən çoxu 60 kubmetr və dərinliyi ən çoxu 5 metr olan quyuların, yeraltı su və çirkab su anbarlarının (rezervuarların), habelə həcmi ən çoxu 200 kubmetr olan hovuzların tikintisinə icazə tələb olunmur. Həmçinin hündürlüyü ən çoxu 2 metr 20 santimetr olan və qonşu torpaq sahəsi ilə sərhəddə və ya küçə boyunca hasarların, hündürlüyü ən çoxu 8 metr olan enerji və ya işıqlandırma dirəklərinin, anten qüllələrinin və ya tutumu ən çoxu 10 kubmetr olan su çənləri qüllələrinin, sahəsi 60 kvadratmetrdən az olan reklam qurğularının, habelə kiçik memarlıq formalarının (köşklər, örtüklər və buna bənzər digər obyektlərin), açıq idman və ya oyun meydançalarının, açıq avtomobil dayanacaqlarının, tutumu 100 nəfərə qədər olan müvəqqəti tikililərin, fasadının mövcud qabaritləri dəyişdirilmədən təmir edilən tikinti obyektlərinin, təmir edilən yol və ya mühəndis-kommunikasiya təminatı xətlərinin, hündürlüyü ən çoxu 3 metr və sahəsi ən çoxu 300 kvadratmetr olan istixanaların Şəhərsalma və Tikinti Məcəlləsinin qanunvericiliyinin tələblərinə əməl edilməklə, yaşayış evlərinin həyətyanı sahələrində hündürlüyü ən çoxu 3 metr və sahəsi ən çoxu 100 kvadratmetr olan yardımçı tikililərin də tikintisinə qanunvericilikdə icazə nəzərdə tutulmayıb.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

# Elektron taksi xidmətinin təqdimatı olub



Naxçıvan Şəhər Nəqliyyat İdarəsində keçirilən elektron taksi xidmətinin təqdimat mərasimində Dövlət Nəqliyyat Xidmətinin rəisi Əli Hüseynəliyev çıxış edərək bildirib ki, müasir həyatı taksisiz təsəvvür etmək mümkün deyil. Xüsusən də hər hansı bir yerə gecikəndə lazımi ünvana vaxtında çatmaq üçün taksi xidmətindən istifadə etməli oluruq. Hazırda Naxçıvan Muxtar Respublikası üzrə 23-ü Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə, 473-ü isə fiziki şəxslərə məxsus olmaqla, ümumilikdə, 496 taksi sərnişindaşıma fəaliyyəti göstərir. Ötən dövrdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində taksi fəaliyyətinin müasir standartlara uyğunlaşdırılması istiqamətində böyük nailiyyətlər əldə olunub. Taksi fəaliyyəti göstərən avtomobillər üçün vahid dizayn müəyyən edilməsi, sürücülərin vahid geyim forması ilə təmin olunması, avtomobillərin təmizliyinə və texniki vəziyyətinə nəzarətin artırılması bu baxımdan, xüsusilə diqqətəlayiqdir. Bu işlərin davamı olaraq muxtar respublika rəhbərinin tapşırığına əsasən əhaliyə göstərilən taksi xidmətinin səviyyəsinin yüksəldilməsi, eləcə də operativ və keyfiyyətli fəaliyyətin təmin edilməsi məqsədilə innovasiyaya əsaslanan elektron taksi xidməti yaradılıb.

Qeyd olunub ki, mütərəqqi yeniliklərin və innovativ sistemlərin tətbiq edildiyi xidmətin qurulması üçün "Bestcomp Group" MMC ilə müqavilə bağlanılıb, 4 kompüter dəsti və server avadanlığı alınıb gətirilib. Proqram təminatının qurulması və avadanlıqların sazlanması işi isə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssisləri tərəfindən həyata keçirilib. Elektron taksi xidmətinin köməkliyi ilə müştərilər əlavə vaxt itirmədən sərfəli qiymətə və rahat şəkildə bütün telefon operatorlarından **"288"** qısa nömrəsinə zəng etməklə, həmçinin mobil tətbiq vasitəsilə taksi sifariş edə bilərlər.

Vurğulanıb ki, taksi operativlik və dəqiqlik tələb edən xidmət sahəsidir. Ona görə də elektron taksi xidməti funksiyasını rahat şəkildə icra edən proqram təminatı hazırlanıb, proqrama tariflər, yol xəritələri, ünvan adları və digər lazımi məlumatlar daxil edilib. Proqram vasitəsilə sifarişin dəyərinin avtomatik hesablanması, sifarişlərin sürücülər arasında paylanması, tariflərin rahat tənzimlənməsi işi həyata keçiriləcək ki, bu da sürücü sərnişin arasında şəffaflığa şərait yaradacaq, sərnişinin etibarlı şəkildə mənzilbaşına çatdırılmasını təmin edəcək. Gələcəkdə bu sistemə yük maşınlarının və digər xidmətlərin də əlavə olunması nəzərdə tutulub.

Qeyd edək ki, "Taksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması ilə 9 nəfər işlə təmin olunacaq ki, bu da əhali məşğulluğuna mühüm töhfədir.

✍ **Nail ƏSGƏROV**

# Uzunömürlü sakinlə görüş keçirilib

*Son illər muxtar respublikada sosial qayğıya ehtiyacı olan insanlarla görüşlərin keçirilməsi, əlamətdar günlərdə onların ziyarət olunması artıq ənənə halını alıb. Növbəti belə tədbir 1 oktyabr – Beynəlxalq Ahıllar Günü ərəfəsində Şahbuz rayonunda baş tutub.*



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Güney Qışlaq kənd sakini – bu il 100 yaşını qeyd etmiş Hüseyn Hümbətovla görüş keçirilib. Görüşdə Şahbuz Rayon İcra Hakimiyyətinin nümayəndəsi Cəlal Paşayev, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Vüqar Məmmədov çıxış edərək bildiriblər ki, muxtar respublikamızda uzunömürlü, ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətimizin əsas qayğılarındandır. Bu məqsədlə onlara müxtəlif sosial xidmətlər göstərilir, sağlamlıqlarının qayğısına qalınır, zəruri məişət məsələləri yerində həll olunur. İkinci Dünya müharibəsi iştirakçısı Hüseyn Hümbətov göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib. O qeyd edib ki, 2011-ci ildə ona dövlət tərəfindən minik avtomobilinin təqdim olunması da bu yüksək qayğının ifadəsidir.

Qeyd edək ki, sosial könüllülərin də iştirak etdiyi görüşdə muxtar respublikanın ən uzunömürlü sakinlərindən olan Hüseyn Hümbətova hədiyyələr də təqdim olunub.

1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə silsilə tədbirlər qarşıdakı günlərdə də davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

"Nəqşicahan Holdinq Şirkətlər Qrupu" MMC-nin "Uzunoba restoranı" MMC-yə məxsus 10 avqust 2015-ci il tarixdə verilmiş MH-0043749 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Çənlibel" məhəlləsi, bina 14A, mənzil 4-də yaşayan Cəfərova Zərparə Aydın qızının adına olan 5622 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Culfa şəhəri, Məmməd Əsgərov küçəsi, bina 17, mənzil 20 ünvanında yaşayan Nuriyev Rəşid Cəfər oğlunun adına olan mənzilin 666 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 718